# Xarici ölkələrin baş prokurorları Suraxanıdakı Ekoparkda ağac əkiblər

Beynəlxalq təşkilatların rəhbər vəzifəli şəxsləri və xarici dövlətlərin baş prokurorları tərəfindən paytaxt ərazisində ağaclar əkilib.

Baş Prokurorluğun Mətbuat xidmətinin verdiyi məlumata görə, 15 noyabr 2024-cü ildə COP29 çərçivəsində "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi"nə həsr olunmuş yüksəksəviyyəli sessiyadan öncə Bakı şəhəri, Suraxanı rayonu ərazisində yerləşən Bülbülə gölünün yanındakı yeni salınmış Ekoparkda baş prokuror Kamran Əliyevin, İNTERPOL-un rəhbərinin, eləcə də 15 ölkənin, o cümlədən Türkiyə, Moldova və Monqolustan Respublikalarının baş prokurorları və digər yüksəkvəzifəli şəxslər də daxil olmaqla 90 nəfərin iştirakı ilə 200 ədəd xatirə ağacı əkilmiş, bununla həmin parkda ümumilikdə əkilmiş ağacların sayı 1700-ə çatdırılmışdır.

Bakı şəhəri, Suraxanı rayon sakinlərinin ekoloji şəraitinin yaxşılaşdırılmasına yönəlmiş parkın salınması baş prokurorun təşəbbüsü ilə



Ulu Öndər Heydər Əliyevin 101-ci ildönümü münasibətilə simvolik ağacların əkimi ilə başlayan, 24.06.2024-cü il tarixdə Xankəndi şəhərində keçirilmiş elmi-praktiki konfransda təsis edilən ECOLEAD (Ətraf mühitin gücləndirilməsi: maarifləndirmə və hüquq-mühafizə tədbirləri) platformasının tərkib hissəsidir.

Hazırkı ağacəkmə tədbiri sayca 5-ci layihədir və bununla Bakı şəhərinin müxtəlif rayonlarında əkilmiş ağacların sayı 2500-ə çatmışdır.

Azərbaycan.- 2024.- 17 noyabr (№ 253).- S.8.